

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 158 (21.310)

14 avqust 2015-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Muxtar respublikada əhalinin dinamik artımı davam edir

Muxtar respublikada son dövrlər ərzində iqtisadi və sosial sahələrdə aparılmış məqsədyönlü tədbirlər ümumi inkişafa təkan vermiş, yeni istehsal və xidmət sahələri yaradılmış, səmərəli məşğulluq təmin edilmişdir.

Əhalinin həyat və məişət şəraitinin yaxşılaşması, cəmiyyətin əsas özəyi kimi ailənin dövlətin xüsusi himayəsində olması demoqrafik proseslərə müsbət təsir göstərmiş, əhali artımının dinamikliyi təmin edilmişdir.

Muxtar respublikada 1 iyul 2015-ci il tarixə əhalinin sayı bir il öncəyə nisbətdə 4 min 193 nəfər artaraq 441 min 731 nəfər təşkil etmişdir. Hazırda muxtar respublika əhalisinin 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir. Əhalinin 29,1 faizi şəhər, 70,9 faizi isə kənd yerlərində yaşayır. Muxtar respublikada bir kvadratkilometrə düşən əhalinin sayı 80 nəfər olmuşdur ki, bu da 1 yanvar 1996-cı illə müqayisədə 19 nəfər çoxdur.

1995-ci ilin sonu ilə müqayisədə əhalinin sayı 103,9 min nəfər artmışdır. Son 20 il ərzində muxtar respublikada 61 min 45 nikah bağlanmış, 149,9 min nəfər uşaq doğulmuşdur.

Əhali sağlamlığının və rifahının davamlı yüksəlişi, tibbi xidmətlərin keyfiyyətinin və əhatəliliyinin artırılması ölüm, o cümlədən 1 yaşa qədər ölən uşaqların sayı göstəricisini aşağı salmışdır. Əgər 1995-ci ildə ölüm göstəricisi əhalinin hər min nəfəri hesabı ilə 6 nəfər olmuşdursa, hazırda bu göstərici 4,5 nəfər təşkil edir. Hər min nəfər doğulana hesabı ilə 1 yaşa qədər ölən uşaqların sayı 1995-ci ildə 20,6 nəfər qeydə alındığı halda, 1 iyul 2015-ci il tarixə bu göstərici 1,3 nəfər təşkil etmişdir.

Doğumun dinamik artımı muxtar respublika əhalisinin sayında gənclərin ümumi sayının artmasına müsbət şərait yaratmışdır. Əgər 1995-ci ildə gənclərin sayı ümumi əhalinin 22 faizini təşkil edirdisə, 1 iyul 2015-ci il tarixə bu göstərici 30,8 faizə çatmışdır. 1995-ci illə müqayisədə gənclərin sayı 61,7 min nəfər artaraq 136 min nəfəri ötmüşdür.

Reallaşdırılan səmərəli demoqrafik və sosial-iqtisadi siyasətin uğurlu nəticəsidir ki, 2014-cü ildə doğulan körpələrdə gözlənilən ömür uzunluğu 1995-ci ildəki müvafiq göstəricidən 7 yaş artaraq 76 yaşa çatmışdır.

Muxtar respublikada əhalinin, xüsusilə ana və uşaqların, əmək qabiliyyətli yaşda olanların ölüm səviyyəsinin ardıcıl surətdə azaldılması yolu ilə cinslər və yaşlar üzrə ömür müddətinin uzadılmasına, əhalinin bütün qrupları üçün sağlam həyat tərzinin təmin edilməsinə, ana və uşaqların sosial müdafiəsinin gücləndirilməsinə nail olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti**

*Naxçıvan Muxtar Respublikasında nağdsız ödənişlərin həcminin artırılması istiqamətində həyata keçirilən tədbirlər öz müsbət nəticələrini verməkdədir.*

## Cari ilin ötən dövründə nağdsız ödənişlərin həcmi artıb

Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsindən verilən məlumata görə, 2014-cü ilin yanvar ayında qeydə alınmış 246 min 264 manatlıq nağdsız dövriyyə 1 avqust 2015-ci il tarixə 1 milyon 194 min 40 manat həcmində müşahidə edilib ki, bunun da 863 min 57 manatı POS-terminallar, 330 min 983 manatı isə internet və digər ödəniş vasitələri ilə aparılıb. Ötən ilin müvafiq dövründə isə bu göstərici 839 min 501 manat olub. Məlumatda qeyd olunur ki, muxtar respublika ərazisində banklar tərəfindən yaradılmış nağdsız ödəniş infrastrukturunun günbəgün genişləndirilməsi də bu artıma səbəb olan amillərdəndir. Əsas ödəniş alətlərindən sayılan ödəniş kartlarının sayı artıq 1 avqust 2015-ci il tarixə 214 min 108 ədəd təşkil edib ki, bu da muxtar respublika sakinlərinin hər iki nəfərindən birinin ödəniş kartı ilə təmin edilməsi deməkdir. Bu göstəricidə ötən ilin müvafiq dövrü ilə müqayisədə qeydə alınmış artım 18 min 797 ədəd təşkil edir. Digər əsas nağdsız ödəniş alətlərindən sayılan POS-terminalların sayında isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 333 ədəd artım qeydə alınıb. Bu, 1 avqust 2015-ci il tarixə 489 ədədi Naxçıvan şəhərində, 523-ü rayon və iri kənd mərkəzlərində olmaqla, 1012 ədəd təşkil edib. Eyni zamanda muxtar respublika ərazisində 54-ü Naxçıvan şəhərində, 41-i isə rayon və iri kənd mərkəzlərində olmaqla, 95 ədəd bankomat quraşdırılıb. Naxçıvan şəhərində quraşdırılmış 2 yeni Milli ÖN (ödəniş nöqtəsi) terminalı da əhaliyə nağdsız əməliyyatları daha rahat və etibarlı şəkildə həyata keçirmələri üçün məsafəli bank xidmətlərini göstərməkdədir.

Ümumilikdə, 2015-ci ilin yanvar-iyul ayları ərzində muxtar respublika sakinləri tərəfindən aparılmış nağdsız əməliyyatların həcmi 9 milyon 324 min 601 manat təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 4 milyon 715 min manat çoxdur.

## Naxçıvanda içməli su və kanalizasiya xətləri müasir standartlar səviyyəsində çəkilir

*İçməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadənin yaxşılaşdırılması istiqamətində muxtar respublikamızda həyata keçirilən irimiqyaslı layihələr uğurla davam etdirilir. Belə ki, Azərbaycan Hökuməti ilə Asiya İnkişaf Bankı arasında bağlanan kredit müqaviləsinə əsasən, "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsi çərçivəsində Naxçıvan şəhərinin su təchizatı və kanalizasiya sistemləri yenidən qurulur.*

Naxçıvan şəhərində, rayon mərkəzlərində və ətraf kəndlərdə su xətləri yenilənir, sutəmizləyici qurğular, iritutumlu su anbarları tikilir, magistral xətlər çəkilir, çirkab sutəmizləyici qurğular yaradılır, sayğaclaşma işləri aparılır. Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsindən aldığımız məlumata görə, cari ilin 7 ayı ərzində Naxçıvan şəhərində 1,89 kilometr şəhərdaxili kanalizasiya şəbəkəsi, 0,43 kilometr şəhərdaxili su şəbəkəsi çəkilmiş, 55 ev kanalizasiya şəbəkəsinə qoşulmuş, 960 ev birləşməsi aparılaraq sayğac quraşdırılmışdır. Həmçinin layihə çərçivəsində bu gün muxtar respublikamızda çirkab sularının yenidən təmizlənərək kənd təsərrüfatında istifadəsi üçün mühüm işlər görülür. Belə ki, çirkab suların təmizlənib zərərsizləşdirilməsi üçün Naxçıvan şəhərində 2014-cü ildən tikintisinə başlanılmış və bu gün davam edən bio-reaktor membrantipli çirkab sutəmizləyici qurğunun tikintisi davam etdirilir.

Rayon mərkəzində və yaxın kənd yaşayış məntəqələrində də su təchizatı və kanalizasiya şəbəkəsinin yenidən qurulması layihəsi çərçivəsində bir çox işlər görülmüşdür.

Babək rayonunda müxtəlif diametrli borularla daxili su şəbəkəsinin 3,71 kilometr xətti, 2,83 kilometr kanalizasiya xətti çəkilmişdir. 34 ev birləşməsi aparılaraq sayğac quraşdırılmışdır.

Şahbuz rayonunda da layihə çərçivəsində bir sıra işlər görülüb və görülməkdədir. Xam su anbarı izolyasiya olunaraq ətrafı doldurulmuş, 320 metr beton kanal çəkilmişdir. Qurğunun ətrafında hamarlama işləri aparılmışdır. Hazırda qurğunun içərisinə tal quraşdırılır, su anbarlarının və sutəmizləyici qurğunun ətrafında abadlıq işləri görülür, hasar və işıqlandırma xətləri çəkilir. "Ayı dərəsi" adlanan ərazidə kaptaj qazılır və mövcud xəttə birləşdirilir.

Bu işlərin həyata keçirilməsində başlıca məqsəd muxtar respublikada əhalinin su ilə təminatını müasir standartlar səviyyəsinə çatdırmaqdır.

*Muxtar respublikamızda tibb işçilərinin ixtisas səviyyəsinin artırılması diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Bu məqsədlə həkimlər mütəmadi olaraq Bakı şəhərinin, Türkiyə Respublikasının müxtəlif klinika və xəstəxanalarına, orta tibb işçiləri isə eyni zamanda Naxçıvan Tibb Kollecinə kurslara göndərilirlər.*

## Tibb işçilərinin ixtisas səviyyələrinin artırılması diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi ilə Türkiyə Respublikasının tanınmış klinika və ali məktəbləri arasında uzunmüddətli qarşılıqlı təcrübə mübadilələrinə uyğun olaraq kursa göndərilən həkim və orta tibb işçiləri ən müxtəlif ixtisaslar, son vaxtlarda isə laboratoriya işi, fizioterapiya, EXO-KQ, süni qan dövranı-qan pompası üzrə müxtəlif müddətlərdə kurslar keçərək muxtar respublikada bu sahələrin inkişafına öz töhfələrini verirlər. Bu mübadilələrin nəticəsində son illərdə çox sayda həkim və orta tibb işçisi təkmilləşmə kursu keçərək əhalinin sağlamlığı keşiyində dayanmışdır. Yeni səhiyyə müəssisələrinin kadr potensialını möhkəmlətmək, əhaliyə göstərilən tibbi xidməti daha da yaxşılaşdırmaq məqsədilə yaradılan əməkdaşlıq əlaqələri öz bəhrəsini verir.

Tibb işçilərinin ixtisas səviyyəsini artırmaq məqsədilə bu ilin ilk yarısında təkmilləşmə kursu keçmələri üçün 6 nəfər həkim və 1 nəfər rezident Türkiyə Respublikası İzmit Kocaeli Universitetinə və 4 nəfər həkim Ərzurum Atatürk Universitetinə, 3 nəfər həkim Bakı şəhərinə, 2 nəfər həkim Moskva şəhərinə göndərilmişdir. Hal-hazırda 1 həkim İspaniyada, 8 həkim Türkiyədə uzmanlıq kursu keçir. Həmçinin bir neçə həkim Bakıda və Türkiyədə keçirilən seminar və konfranslarda iştirak etmək üçün göndərilmişdir.

Həkimlərin peşə bacarıqlarının artırılması istiqamətində görülən işlərin məntiqi nəticəsidir ki, artıq muxtar respublikanın yerli kadrları müstəqil şəkildə xəstələr üzərində açıq ürək, angioqrafiya, ürək damarlarına stent qoyulması, laparoskopik, TUR, LOR, göz və digər mürəkkəb cərrahi əməliyyatları uğurla həyata keçirirlər.

Yüksəkixtisaslı həkimlər angioqrafiya, kompüter tomoqrafiyası, rəqəmsal rentgenoqrafiya, mammoqrafiya, hemodializ, nüvə maqnit rezonansı aparatları ilə xəstələrə xidmət edirlər. Bu isə, son nəticədə, müxtəlif xəstəliklərin müalicəsi üçün Bakı şəhərinə və digər ünvanlara üz tutanların sayının nəzərəçarpacaq dərəcədə azalmasına gətirib çıxarmışdır.

*Muxtar respublikamızda aparılan məqsədyönlü islahatlar nəticəsində iqtisadiyyatın bütün sahələrində, o cümlədən əmlak münasibətlərində müsbət mənada əsaslı dəyişikliklər baş verib. İqtisadiyyatda müşahidə olunan müsbət tendensiyalar daşınmaz əmlakın və torpaqların idarəçiliyi sahəsində yeni yanaşmaları labüd edib. Həmin yanaşmalar informasiya və kommunikasiya texnologiyalarının, qabaqcıl idarəetmə mexanizmlərinin, beynəlxalq təcrübənin, müasir normativ-hüquqi bazanın və sadələşdirilmiş prosedurların tətbiqini özündə ehtiva edir.*

## Daşınmaz əmlakın və torpaqların qeydiyyatı mütəşəkkilliklə aparılır

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin yaradılması haqqında" 2015-ci il mayın 19-da imzaladığı Sərəncama əsasən, Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin əsasında Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin yaradılması bu sahədə idarəçiliyin təkmilləşdirilməsinə, işlərin mərkəzləşmiş qaydada daha mütəşəkkil şəkildə aparılmasına geniş imkanlar açıb, yeni-yeni uğurlu nəticələrin əldə olunmasına rəvac verib. Ötən ayın mənzərəsinə nəzər saldıqda bunu daha aydın şəkildə görmək olar. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamları ilə təsdiq edilmiş dövlət proqramlarının müvafiq bəndlərinin icrası, sessiya və müşavirələrdə verilmiş tapşırıqların yerinə yetirilməsi istiqamətində Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsində mövcud Əsasnaməyə və təsdiq edilmiş iş planına uyğun olaraq, 2015-ci ilin iyul ayı ərzində xeyli iş görülüb.

Komitədən aldığımız məlumata görə, daşınmaz əmlakın hüquqi ekspertizası və reyestrinin aparılması istiqamətində görülən məqsədyönlü işlər nəticəsində ötən ay, ümumilikdə, muxtar respublika üzrə 136 torpaq, bir qeyri-yaşayış sahəsi, 47 mənzil, 80 fərdi yaşayış evi olmaqla, cəmi 264 daşınmaz əmlak obyekti, səyyar xidmət vasitəsilə 43 əmlak qeydiyyata alınıb. Ay ərzində 28 girov qeydi aparılıb, yüklülüyə dair 192 arayış verilib.

Daşınmaz əmlakın inventarlaşdırılması və qiymətləndirilməsi sahəsində iyul ayı ərzində fərdi yaşayış evi və mənzillərə texniki pasport hazırlanması üçün 19 vətəndaş müraciət edib, 14 fərdi yaşayış evi və 5 mənzilin texniki pasportları hazırlanıb. Ünvan reyestrinin aparılması sahəsində ötən ay muxtar respublikada ilkin qeydiyyat, bölünmə və birləşmə nəticəsində 21 yeni daşınmaz əmlak obyekti yaranıb. Yeni yaranan daşınmaz əmlak obyektlərinin 18-i Naxçıvan şəhəri, 2-si Babək rayonu, 1-i isə Şərur rayonu üzrə olmaqla qeydə alınıb. İyul ayında Şərur rayonu üzrə 1328,5 hektar əkinəyararlı torpaq sahəsinin torpaq islahatı zamanı mülkiyyətə verilmədiyi müəyyən olunub, müvafiq tədbirlər görülüb.

"Bələdiyyələrin dövlət reyestrinin aparılması və onlara şəhadətnamələrin verilməsi haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanına uyğun olaraq, Culfa rayonunun 28, Şahbuz rayonunun 4, Şərur rayonunun 48, Babək rayonunun isə 24 bələdiyyəsinin sərhəd xəritələrinə dair müvafiq yerquruluşu sənədləri elektron variantda hazırlanaraq komitənin məlumat bazasına yerləşdirilib. Torpaq kadastrı və qeydiyyatı sahəsində iyul ayı ərzində muxtar respublika ərazisindəki dövlət, bələdiyyə və xüsusi mülkiyyətə aid torpaqların kameral şəraitdə xəritə üzərində kəmiyyət və keyfiyyət uçotu aparılıb.

Rabitə və Yeni Texnologiyalar Nazirliyinin dəstəyi ilə komitənin yeni internet saytı və elektron poçt ünvanı yaradılıb, keçmiş Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin elektron poçt ünvanına daxil olan və göndərilən məktublar yeni yaradılan elektron poçt ünvanına köçürülüb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 16 iyul 2015-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış formalarının təsvirləri elektron sistemə işlənib və müvafiq proqram təminatı yaradılıbdır. İyul ayı ərzində məhdudiyyət və yüklülüyün olub olmaması barədə 192, vətəndaşın adına daşınmaz əmlakın olub olmamasına dair 73 arayış hazırlanaraq verilib, 15 sorğu məktubu cavablandırılıb, hüquqların məhdudlaşdırılması haqqında daşınmaz əmlakın dövlət reyestrindən 28 ədəd çıxarış hazırlanaraq aidiyyəti üzrə təqdim olunub.

Muxtar respublikanın rayonlarının ümumi sahəsi, qonşuluqlarla sərhədləri, kənd təsərrüfatına yararlı torpaqları və rayon ərazisində olan hündürlüklər barədə yazılı məlumat hazırlanaraq aidiyyəti üzrə təqdim edilib.

**Xəbərlər şöbəsi**

# Şərur inkişafın yeni mərhələsindədir

## *Belə inkişafa sabitlik, nizam-intizam, qayğı yol açıb*




### *Rayonun tarixinə qısa ekskurs*

*Ayrı-ayrı vaxtlarda müxtəlif adlar daşıyan Şərur rayonu 1930-cu ildə təşkil edilib. Bölgənin ərazisi 811,14 kvadratkilometr, əhalisi 112 min nəfərdən çoxdur. Bir şəhər və 65 kənd yaşayış məntəqəsindən ibarət olan rayonun qədim tarixi abidələri min illərdən bu günə boylanan körpüdür. Tarixin izlərini özündə qoruyan yaşayış yerləri, qalalar, qəbiristanlıqlar və memarlıq abidələrindən ibarət olan bu qiymətli yadigarlar qədim insanların əmək fəaliyyətini və həyat tərzini özündə əks etdirir. Aparılan tədqiqatlar zamanı Qazma mağarasından xeyli əmək alətləri, Şortəpə abidəsindən yüksək sənətkarlıqla hazırlanmış boyalı qablar, Son Tunc-İlk Dəmir dövrlərinə aid maddi-mədəniyyət nümunələri aşkar edilib. Bölgədə Oğlanqala, Qalaçıq, Govurqala, Qarasu kimi müdafiə istehkamları inşa olunub. Bu, o dövrdə əraziyə xarici işğalçıların, xüsusilə Urartu basqınlarının artdığını göstərir. Rayon ərazisində orta əsrlərə aid körpü, bürclər, məscid və pirlər, karvansaralar mühafizə olunaraq saxlanılıb.*



Ulu Tanrı öz səxavətini Şərurdan əsirgəməyib. Torpaqlarının bərəkətinə söz ola bilməz. İnsanları yurd, torpaq təəssüblüdürlər. Elm, mədəniyyət xadimlərinin səsi-sorağı dünyanın müxtəlif ölkələrindən gəlir. Şərur muxtar respublikamızın böyük rayonlarından biridir. Bu yaxınlarda yolumuzu bu bölgədən saldıq: son 20 ildə rayonda həyata keçirilən genişmiqyaslı quruculuq tədbirlərinin, reallaşdırılan iqtisadi layihələrin Şərura gətirdiyi yenilikləri görmək, insanların günbəgün yaxşılaşan həyat səviyyəsi ilə yaxından tanış olmaq üçün.

Yolboyu Şərur rayonunun bəhs olunan dövrdə keçdiyi yolu xatırlamağa çalışıram. Hələ sovet dönəmində dəfələrlə qonağı olduğum bu qədim yurd yerinin ovaxtkı görkəmini gözlərim önünə gətirir, müqayisə aparmaq istəyirəm. Ancaq alınmır. Bu, əslində, heç mümkün də deyil. Çünki fərq çoxdur. Bu gün Şərur müasir Azərbaycan rayonudur. Şərur şəhəri, bölgənin kəndləri füsunkar bir gözəlliyə qovuşub, yenilənib, müasirləşib. Kəndlə şəhər arasındakı fərqin aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlər bəhrələrini verib. Kənd yaşayış məntəqələrində müasir infrastruktur yaradılıb. Həmin ünvanlarda sahibkarlıq obyektləri fəaliyyətə başlayıb. Bu isə yeni iş yerlərinin açılmasına, insanların məşğulluğunun təmin olunmasına imkan verib.Turizm potensialından düzgün istifadə üçün tədbirlər reallaşdırılıb. Həyatın bütün sahələrində qazanılan uğurlar getdikcə artmaqdadır.

Bir sözlə, Şərur öz inkişafının yeni müstəvisindədir.

### *Şərurun quruculuq xəritəsi*

Son 20 ildə rayonda həyata keçirilən quruculuq tədbirlərinin həcmi o qədər böyükdür ki, onları adbaad sadalamaq mümkün deyil. Qısaca olaraq bildirək ki, adıçəkilən dövrdə rayonda 1 şəhər və 32 kənd mərkəzi, kənd yaşayış məntəqələrində 40 məktəb binası, Təhsil Şöbəsi, məktəbdənkənar müəssisələr, uşaq bağçaları, texniki-peşə və sürücülük məktəb kompleksi, rayon mərkəzi və Aralıq kənd sahə xəstəxanaları, 33 kənd yaşayış məntəqəsində səhiyyə ocaqları, Şərur Rayon Mədəniyyət Evi, “Bahar” kinoteatrı, Cəlil Məmmədquluzadənin Xatirə Muzeyi, Şərur Şəhər Uşaq incəsənət məktəbi, 2 kənd uşaq musiqi məktəbi, 33 kənd mədəniyyət müəssisəsi, rayon Rabitə İdarəsi üçün yeni binalar tikilərək, yaxud yenidən qurularaq istifadəyə verilib. Belə qayğıdan rayonun digər idarə, müəssisə və təşkilatlarına da pay düşüb. Həmin müəssisələrdə müasir iş şəraiti yaradılıb. Rayondaxili yolların müasirliyinə söz ola bilməz.

Cari ilin ötən dövrü ərzində rayonda tikinti-quruculuq və abadlıq işləri davam etdirilib, Şərur şəhərində Aviakassa binası, Kürkənddə, Cəlilkənddə və Püsyanda məktəb, kənd və xidmət mərkəzləri, Püsyan və Cəlilkənddə həkim ambulatoriyaları, Cəlilkənddə mədəniyyət evi, Cəlil Məmmədquluzadənin Xatirə Muzeyi, həmin yaşayış məntəqəsində tarixi memarlıq abidəsi olan buzxana və məscid, Aşağı Aralıq kəndində mərasimlərin keçirilməsi üçün bina və dəyirman istifadəyə verilib. Eyni zamanda Şərur şəhərinin Heydər Əliyev prospektində yerləşən 50 nömrəli 24 mənzilli yaşayış binası əsaslı təmir olunub.

Hazırda Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin və 2 nömrəli tam orta məktəbin, Xanlıqlar kəndində “İmamzadə”nin, Axaməd, Kürçülü, Oğlanqala və Yuxarı Yaycı kəndlərində məktəblərin, kənd və xidmət mərkəzlərinin, Qarxun kəndində “N” hərbi hissə üçün infrastruktur obyektlərin tikintisi davam etdirilir.

Həyata keçirilən bütün layihələr bir məqsədə ünvanlanıb: şərurluların yaşayış səviyyəsini yaxşılaşdırmaq, insanların layiq olduğu səviyyədə yaşamasına nail olmaq. Rayon sakinləri də bu həqiqəti dərindən dərk edir, rayonun, muxtar respublikanın və nəticə etibarı ilə, ölkəmizin sosial-iqtisadi inkişafına öz töhfələrini verməyə çalışırlar.

Belə davamlı qayğı şərurlulara həyatın bütün sahələrində böyük uğurlar qazanılmasına imkan verib. Bunu cari ilin ilk 6 ayının timsalında bütün çalarları ilə görmək mümkündür.

### *İyirmi ilin son altı ayı və ya bolluqdan, xoş gün-güzərandan soraq verən rəqəmlər*

Bu ilin birinci yarısında kənd təsərrüfatı məhsulları istehsalını artırmaq üçün ardıcıl tədbirlər həyata keçirilib. Azərbaycan Respublikası Prezidentinin sərəncamına uyğun olaraq, 1174 nəfər torpaq mülkiyyətçisinə 7 min 315 hektar əkin sahəsinə görə 292 min 600 manat yardım olunub. “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyəti Şərur rayon filialı tərəfindən kənd təsərrüfatının inkişafı üçün vətəndaşlara 1 milyon 320 min manat kredit verilib. Kənd təsərrüfatı işlərinin keyfiyyətli və müasir tələblərə uyğun yerinə yetirilməsi üçün sahibkar və fermerlərə 200 min 800 manat dəyərində 29 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikaları lizinq yolu ilə güzəştli şərtlərlə satılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 14 fevral 2012-ci il tarixdə imzaladığı “2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”na uyğun olaraq, bu sahədə işlər davam etdirilib, rayonun Danyeri, Xanlıqlar, Cəlilkənd və Oğlanqala kəndlərində ayrı-ayrı torpaq mülkiyyətçiləri tərəfindən müxtəlif meyvə sortları üzrə tingçilik təsərrüfatları yaradılıb. Rayonda yaz ayları ərzində 12 hektar sahədə yeni meyvə bağları salınıb, 30 hektar bağda bərpa işləri aparılıb.

Rayonda 2015-ci ilin məhsulu üçün 17115 hektar sahədə əkin aparılıb. Əkin sahəsinin 9677 hektarını dənli və paxlalı bitkilər (qarğıdalısız), 624 hektarını dən üçün qarğıdalı, 30 hektarını dən üçün günəbaxan, 1572 hektarını tərəvəz bitkiləri, 472 hektarını ərzaq üçün bostan bitkiləri, 754 hektarını kartof, 3037 hektarını cari ildə əkilmiş çoxillik otlar təşkil edir. Sahələrdə bol məhsul yetişdirilib. Avqust ayınadək 9677 hektar dənli və dənli-paxlalı bitkilərin əkin sahəsinin 25,9 faizindən 9265 ton məhsul yığılıb. Məhsuldarlıq orta hesabla 36,9 sentner olub. 754 hektar kartof əkilmiş sahənin 26,5 faizindən 3170 ton kartof, 1572 hektar tərəvəz bitkiləri əkini sahəsinin 60,4 faizindən 11690 ton tərəvəz məhsulları tədarük edilib. Barverən meyvə bağlarından 9020 ton meyvə dərilib. Balıqçılıqla məşğul olan müəssisələr tərəfindən 2015-ci ilin yanvar-iyun aylarında 53 min manat, 2014-cü illə müqayisədə 2 min manat çox dəyərində balıq satılıb.

Rayonun torpaq mülkiyyətçiləri cari ildə daha yüksək göstəricilərə nail olmaq əzmindədirlər. Bunun üçün onların hər cür imkanları var. Son illər rayonda həyata keçirilən meliorasiya tədbirləri torpaqlardan daha səmərəli istifadə etməyə imkan verib, hektarlarla sahə əkin dövriyyəsinə qatılıb.

Şərur rayonunda son 20 ildə güclü sahibkarlar dəstəsi yetişib. Zeyvə kəndində quşçuluq təsərrüfatı, “Şərur-3” Məhdud Məsuliyyətli Cəmiyyəti, arıçılıq, balıqçılıq təsərrüfatlarında istehsal olunan məhsullar özünə çoxlu alıcı toplaya bilib. Rayonda 3 dəyirman, 23 çörəkbişirmə sexi fəaliyyət göstərir. İbadulla-Arpaçay ərazisində yaradılmış istixana təkcə rayon sakinlərinin deyil, ümumilikdə, muxtar respublika əhalisinin yerli məhsullarla təminatına töhfələrini verir. Rayonda tikinti-quruculuq işlərində geniş istifadə olunan priket kərpic istehsalı ilə 20 sex məşğul olur.

### *Xidmət sahələrinin fəaliyyəti qənaətbəxşdir*

Cari ilin birinci yarısında Rabitə İdarəsi tərəfindən əhaliyə 348 min 458 manatlıq poçt və rabitə xidməti göstərilib ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 31 min 250 manat çoxdur. Bu dövr ərzində 556 mənzilə yeni telefon xətti çəkilib. Cari ildə əhaliyə telefon xidmətini yaxşılaşdırmaq məqsədilə Axaməd, Kürçülü, Oğlanqala və Yuxarı Yaycı kəndlərində yeni avadanlıqların quraşdırılması tədbirləri aparılır. Bu işlər başa çatdıqdan sonra rayon ATS-nə birləşdirilmiş kənd ATS-ləri rəqəmsal qaydada işləyəcəkdir.

Bəhs olunan dövrdə rayonda 8 ədəd müxtəlif güclü transformator yarımstansiyası quraşdırılıb, 25,1 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq elektrik verilişi xətlərinin çəkilişi başa çatdırılıb. 183 ədəd yeni sayğac quraşdırılıb, 269 ədəd sıradan çıxmış sayğac dəyişdirilib. Bu dövr ərzində 37 ədəd transformator əsaslı, 75 ədəd transformator cari təmir olunub. Vətəndaşlar tərəfindən 2015-ci ilin birinci yarısında inşa edilmiş 48 yeni evə elektrik xətti çəkilib.

### *Əhalinin məşğulluğu təmin edilir, sosial müdafiəsi gücləndirilir, maddi rifah halı daha da yaxşılaşdırılır*

Xüsusi qeyd olunmalıdır ki, son 20 ilə yaxın müddətdə muxtar respublikada müxtəlif istiqamətlərdə həyata keçirilən tədbirlərin təməlində əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi üçün insanların sosial müdafiəsinin gücləndirilməsi, onların məşğulluğunun təmin olunması dayanır. Davamlı xarakter alan belə tədbirlər əhali tərəfindən razılıqla qarşılanır. Bu il Şərur rayonunda da reallaşdırılan bir sıra tədbirlər bölgə sakinlərinin rifah halını xeyli yüksəldib. Belə ki, rayon Məşğulluq Mərkəzi tərəfindən 2015-ci ilin birinci yarısında 319 nəfər işaxtaran qeydiyyata alınıb, həmin vətəndaşlardan 262 nəfəri müxtəlif sahələrdə daimi işlə təmin olunub. Cari ilin ilk 6 ayı ərzində keçirilən əmək yarmarkalarında 67 nəfər vətəndaş daimi işlə, kənd təsərrüfatı məhsullarının becərilməsi ilə əlaqədar 20 nəfər müvəqqəti işlə təmin edilib. 36 nəfər işaxtaran vətəndaş peşə yönümünə cəlb olunub.

2015-ci ilin birinci yarısında Əhalinin Sosial Müdafiəsi Mərkəzi tərəfindən 1 milyon 770 min 140 manat vəsait təyinatı üzrə xərclənib. Ünvanlı sosial yardım alan 795 ailənin 3402 nəfərinə 449 min 669 manat ödənilib. Bir nəfər hərbi xidməti vəzifəsini yerinə yetirərkən əlil olmuş şəxsə minik avtomaşını verilib.

Bəhs olunan dövrdə Dövlət Sosial Müdafiə Fondu Şərur Rayon Şöbəsi tərəfindən 2 milyon 952 min manat proqnoz tapşırığa qarşı 3 milyon 407 min 424 manat məcburi dövlət sosial sığortahaqqı yığılıb ki, bu da əvvəlki ildəkindən 75 min 578 manat çoxdur. 2015-ci ilin 6 ayında fiziki şəxslərdən 89 min 962 manat məcburi dövlət sosial sığortahaqqı yığılıb. Bu, əvvəlki ildəkindən 9,5 faiz çoxdur. Torpaq mülkiyyətçilərindən 102 min 400 manat proqnoz tapşırığa qarşı 113 min 347 manat vəsaitin büdcəyə ödənilməsi təmin edilərək tapşırığa 110,7 faiz əməl olunub. Bəhs olunan dövrdə pensiyaların ödənilməsinə 10 milyon 688 min 848 manat vəsait xərclənib.

Bu istiqamətdə həyata keçirilən tədbirlərin daimi xarakter alması rayon sakinlərinin qurub-yaratmaq əzminin yüksəldilməsində başlıca amildir.

### *Şərurlular 2015-ci ili daha yüksək nəticələrlə başa vuracaqlarına əmindirlər*

Cari ilin üçüncü rübü öz axarı ilə davam edir. Digər bölgələrimiz kimi, Şərur rayonunda da insanlar yüksək əhval-ruhiyyə ilə qurub-yaratmaqdadırlar. Bunu həmsöhbət olduğumuz şərurluların çöhrələrindən, söhbətlərindən hiss etmək çətin deyildi. Yazımızı Şərur Rayon Ağsaqqallar Şurasının sədri Mirhüseyn Seyidovun fikirləri ilə başa çatdırırıq: – Şərurlular bəhs olunan dövrdə həyata keçirilən tədbirlərdə fəallıq göstərməyi vətəndaşlıq borcuna çevirərək doğma yurd yerinin müasirliyə qovuşması üçün əllərindən gələni əsirgəməyiblər, dövlətimizə dəstək olublar. Bu gün də bölgədə tikinti-quruculuq işləri sürətlə davam etdirilir, emal və sənaye müəssisələri daha böyük uğurlar qazanmaq əzmi ilə çalışır, rayon sakinləri Şərurun daha da çiçəklənməsi, iqtisadi cəhətdən güclənməsi üçün səy və bacarıqlarını əsirgəmir, son 20 ildə qazanılan uğurları son hədd hesab etməyərək qarşıdakı illərdə də yüksək göstəricilərə nail olacaqlarına inanırlar. Çünki arxalarında güclü dövlətin durduğunu görürlər. Belə dövlətin vətəndaşları olmaqla qürur duyurlar. Bilirlər ki, nail olunan hər bir uğurun təməlində insana, onun layiq olduğu səviyyədə yaşamasına qayğı dayanıb.

✍ **Muxtar MƏMMƏDOV**



# Kənd təsərrüfatı ili

## Çəltikçilik Naxçıvanın əsas təsərrüfat sahələrindən olub

*İnsan həyatı hər zaman maddi nemətlər istehsalından asılı olub. Bu baxımdan xalqımızın iqtisadi istehsal tarixinin öyrənilməsi mühüm əhəmiyyət daşıyır. Yaşadığımız coğrafiyanın zəngin təbiətə, bərəkətli torpaqlara, çoxsaylı iqlim qurşağına, bol sulu ərazilərə malik olması yer üzündə sənətlərin ən qədimi olan əkinçiliyin bilavasitə inkişafına imkan verib.*



Ölkəmizin bir çox regionları kimi, qədim Naxçıvan torpağı da bu zənginlikdən nəsibini alaraq tarixboyu özünün mütərəqqi əkinçilik ənənələrini yaradıb. Bunu arxeoloji qazıntılardan əldə edilmiş müxtəlif əmək alətlərinin hissələri, təsərrüfat küpləri və sair də təsdiq edir. Etnoqraf olmasam da, bunu əminliklə deyə bilərəm ki, dünyanın əkinçilik tarixində ilk, həm də mühüm yeri dənli bitkilərin istehsalı tutur. Buğda, arpa, darı, çəltik kimi bitkilərin əkini də əsrlərdən bəri naxçıvanlıların əsas məşğuliyyətlərindən olub. Qədim Nuh yurdunun bərəkətli torpaqları uzun illərdir ki, üzərində yaşadığı insanların ruzisini bu əkin növlərindən verib, çəkdikləri zəhmətin hesabına dolanışıqlarını təmin edib, beləliklə, özünün əkinçilik mədəniyyətinin formalaşmasına yardım edib. Əslində, əkinçilik çox müqəddəs sənətdir. Ona görə yox ki, bu sənətin tarixi qədimdir və ya əkinçilik böyük zəhmət tələb edir. Məsələ ondadır ki, əkinçilik yeganə sənətdir, bu sənət olmasa idi, cəmiyyətin bioloji varlığı sual altında olardı. Bəlkə də, buna görədir ki, Uca Yaradanın yer üzünə göndərdiyi peyğəmbərlərdən dərzi İdris Peyğəmbər istisna olmaqla, hamısı əkinçiliklə məşğul olub.

Mətləbdən uzaqlaşmadan deyək ki, Naxçıvanda da qədim dövrlərdən bəri müxtəlif dənli bitkilərin əkininə böyük yer verilib, buğda, arpa əkini ilə yanaşı, çəltik yetişdirilməsi də əkinçilərin diqqət göstərdiyi sahələrdən olub. Məlumat üçün deyək ki, çəltik bitkisi quruluşuna görə vələmirə və adi darıya oxşayır. Ancaq bioloji və fizioloji xüsusiyyətləri ilə bütün taxıl növlərindən fərqlənir. Kənd təsərrüfatı mütəxəssisi Əsgər Həsənov deyir ki, çəltik nəmliyə çox tələbkar olmasına baxmayaraq, su bitkisi hesab edilmir. Çünki su bitkilərinin kök sistemi zəif şaxələnir, çəltikdə isə köklər qüvvətli şaxələnərək çox sayda kök telləri əmələ gətirir. Çəltiyin kök sisteminin əsas kütləsi (70%-dən çoxu) torpağın 25-30 santimetr dərinliyində inkişaf edir, yalnız əhəmiyyətsiz bir hissəsi dərin qatlara (80-90 santimetr dərinliyə) işləyir. Bu bitkinin yarpaqları uzun, ensiz, adətən, tüklü və sort əlaməti olaraq yaşıl, çəhrayı, qırmızı, hətta qara rəngli olur. Bir hektar sahədən 40 sentnerə qədər məhsulvermə qabiliyyətinə malikdir.

Apardığımız araşdırmalar nəticəsində məlum oldu ki, vaxtilə muxtar respublikanın əksər ərazilərində çəltik becərilib. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyindən verilən məlumata görə, Naxçıvan Muxtar Respublikasının inzibati ərazisində, ələlxüsus da Şərur rayonunun Çərçiboğan, Dərvişlər, Aralıq, Maxta, Dəmirçi, Babək rayonunun Qoşadizə, Kültəpə, Şəkərabad, Şıxmahmud, Uzunoba, Culfa rayonunun Bənəniyar, Saltaq, Kırna və Əbrəqunus kəndlərində 1800-cü ildən başlayaraq, darı ilə yanaşı, çəltiyin də əkini geniş ərazilərdə aparılıb. Tarixi mənbələrdən əldə etdiyimiz məlumata görə, 1828-ci ildə Naxçıvan xanlığında çəltik məhsulu 10 min puda bərabər olub. Bununla bərabər, Kəngərli rayonunun Qarabağlar və Yurdçu kəndləri arasında, qədim Şahtaxtı kəndinin Araz çayına yaxın ərazilərində, Babək rayonunun Kültəpə və Məmmədrza Dizə, Qaraqala və Sirab kəndləri arasındakı ərazilərdə çəltik ləklərinin qalıqlarına bu gün də rast gəlinir. Apardığımız araşdırmalardan məlum olur ki, çəltik əkini XIX əsrdə, XX əsrin ortalarınadək muxtar respublikanın çox böyük ərazilərini əhatə edib. Məsələn, mənbələrdən aydın olur ki, Zaqafqaziya Mərkəzi Statistika İdarəsinin verdiyi məlumata görə, 1905-ci ildə Çar Rusiyasının İrəvan quberniyasının Naxçıvan qəzasında 140 ton çəltik istehsal olunub. Muxtar respublikamızın geniş əkin sahələrinə malik Şərur rayonunda olarkən öyrəndik ki, 1941-1945-ci illər müharibəsi dövründə rayonun əksər kəndlərində böyük ərazilərdə çəltik əkilib. Tumaslı, Vayxır, Püsyan, Vərməziyar, İbadulla, Alışar, Muğanlı, Qarahəsənli kəndlərinin ərazilərində hektarlarla çəltik sahələri olub. Çəltikçiliklə məşğul olan insanlardan bir neçəsi ilə görüşüb söhbət etdik. Vayxır kənd sakini, 88 yaşlı Zəhra Şıxəliyeva həmin günləri belə xatırlayır: "1941-1945-ci illər hər kəs üçün ağır dövrlər idi. Kolxoz-sovxozlara tapşırılmışdı ki, çəltik əkininə çox yer verilsin. Çünki düyü elə bir yeməkdir ki, yeri gələndə çörəyi də əvəz edir. Kənddə kişilərin çoxu cəbhəyə göndərilmişdi. Ona görə də çəltik əkənlərin çoxu qadınlar idi". Çəltiyin necə əkilməsindən söhbət açan Zəhra nənə deyir ki, kəndin "Kirdələr", "Söyüdbaşı" adlanan ərazilərində böyük çəltik sahələri vardı. Hətta çəltik sahələrinin bir ucu Vərməziyar, İbadulla kəndlərinə qədər gedib çıxırdı. Bu tərəfdən isə Püsyan kəndinin torpaqlarına qədər uzanırdı. Əkinə may ayında başlayırdıq. Suvarma suyu Arpaçaydan gəlirdi. O zamanlar çayın suyu da bol idi. Məhsulun yetişmə dövrünə qədər ayaqyalın suyun içərisinə düşüb çəltiyi alaq otlarından təmizləyirdik ki, şitillər yaxşı inkişaf etsin. Çəltiyin yetişməsinə 10-15 gün qalmış suyu kəsirdik. Görürdük ki, sünbüllərin çoxu saralıb, o zaman biçin dövrü başlayırdı. Biçin dövrü də zəhmətsiz ötüşmürdü, indiki kimi texnikalar yox idi, əllə biçirdik. Rəhmətlik Gülarə Əliyeva vardı, bizim manqa başçısı idi. Özü də bizimlə bərabər digərləri kimi məhsulun yetişdirilməsindən sonuna qədər yorulmadan çalışırdı. Deyirdi ki, biz yaxşı məhsul toplamasaq, cəbhədəkilər çətinlik çəkər. Sonra biçilmiş sünbüllərdən dərz bağlayırdıq və həmin dərzləri aparıb anbarda döyüb dəni ayırırdıq. Hazır dəni isə çuvallara doldurub kolxoza təhvil verirdik. İndiki kimi deyildi, bütün məhsulu dövlətə təhvil verirdik, bizə də cüzi bir pay verirdilər.

Diyadin kəndində yaşayan 86 yaşlı Zal Hüseynov da çəltiyin necə əkilib-biçildiyindən danışır. Deyir ki, tarlaların suvarılması və alaq otlarından təmizlənməsini nəzərə almasaq, əsas iş biçin dövrü, yəni sentyabr, oktyabr aylarında olurdu. Çünki zəmilər əllə biçildikdən sonra məhsul yerə sərilirdi ki, iki-üç gün tam qurusun. Sonra dərz bağlayırdıq, 5-6 gün sonra isə döyülmə prosesi başlayırdı. Müsahibimiz hansı çəltik növlərindən əkildiyini xatırlamasa da (ölkəmizdə 6-7 növ çəltik sortu rayonlaşdırılıb), hər hektardan 35-40 sentnerə yaxın məhsul yığdıqlarını bildirdi.

Yaşlı insanlarla söhbətlərdən o da aydın olur ki, həmin aclıq dövrlərində istehsal olunan çəltikdən cəbhəyə də göndərilib, tarixini dəqiq deyə bilməsələr də, bir zamanlar Dərələyəz, Göyçə, Zəngəzur mahallarında aclıqdan əziyyət çəkən insanlara da. Zəhra nənə onu da qeyd edir ki, rayonumuzun torpaqları çox bərəkətli torpaqlardır. Bir zamanlar çəltik əkilən sahələrdə sonralar pambıq əkməyə başladılar. Bir müddət sonra isə pambıq əkininə də son verildi, həmin sahələri taxıl əkini ilə əvəz etdilər. Hazırda həmin sahələrdə taxıl zəmiləri, çoxillik yem bitkiləri becərilir.

Bəli, tarixən çəltikçiliyin geniş inkişaf etdirildiyi muxtar respublikamızda formalaşmış əkinçilik mədəniyyəti Naxçıvanın milli mətbəx mədəniyyətinə də təsirsiz ötüşməyib. Naxçıvanda məşhur "Düyü sıyığı", "Şiləaşı", "Südaşı", "Çəkmə" və yaxud "Çəkməcə" kimi xörəklər nənələrimiz tərəfindən o illərdən müasir günümüzə qədər gəlib çatan nemətlərdəndir. Doğrudur, bu gün muxtar respublikada çəltik əkini həyata keçirilməsə də, bu qiymətli bitki Naxçıvanın təsərrüfatçılıq ənənələrində yaşayır. Vaxtilə minlərlə insanın məşğuliyyət sahəsi olmuş, aclıq dövründə cəbhəyə sovqat kimi göndərilmiş bu məhsulun istehsalı hazırda ölkəmizin digər rayonlarında həyata keçirilsə də, çəltikçilik Naxçıvanın etnoqrafik və əkinçilik tarixinin öyrənilməsi baxımından çox əhəmiyyətlidir. Biz isə "Kənd təsərrüfatı ili"ndə bu tarixin səhifələrinə ötəri nəzər salmağa çalışdıq.

**✍ Səbuhi HƏSƏNOV**

***Kənd təsərrüfatının inkişafında taxıl istehsalı əkinçiliyin əsasını təşkil edir. Demək olar ki, dünyanın əksər ölkələrində əkinçiliyin ilk tarixi taxılın becərilməsilə başlayır. Əgər taxılçılıq inkişaf etdirilməsə, kənd təsərrüfatının digər sahələrini inkişaf etdirmək qeyri-mümkündür. Əhalini ərzaqla, heyvandarlığı yemlə və sənayeni xammalla təmin etmək üçün dənli taxıl bitkilərinin əhəmiyyəti olduqca böyükdür. Odur ki, əhalinin ərzağa olan tələbatını ödəmək üçün taxıl istehsalının həcmi artırılmalı və keyfiyyəti yaxşılaşdırılmalıdır. Buğda daha geniş yayılmış və ən qiymətli dənli ərzaq bitkisidir.***

## Taxıl strateji əhəmiyyətli məhsuldur

Dənli taxıl bitkiləri içərisində payızlıq buğdanın xüsusi yeri var. Dənin tərkibində əvəzsiz amin turşuları olan zülallar, yağ, vitaminlər, karbohidratlar və mineral maddələr vardır. Buğda dəni fosfor, qiymətli kalium birləşmələri, dəmir və çoxlu vitaminlərlə zəngindir. Payızlıq buğdanın becərilmə aqrotexnikası bir neçə mərhələdə aparılmalıdır. Düzgün və vaxtında aparılan tədbirlər məhsul artımını təmin edir.

İlk növbədə taxıl əkiləcək sahədə növbəli əkin sisteminə ciddi əməl olunmalıdır. Bu məqsədlə sahə seçərkən sələf bitkiləri nəzərə alınmalı, torpağın mexaniki tərkibi öyrənilməli, onun gübrələrlə təminolunma dərəcəsi müəyyən edilməli və sonra şumun aparılması üçün hazırlıq işləri görülməlidir. Taxılın, əsasən, kartof, tərəvəz, bostan, birillik və çoxillik otlar, şəkər çuğunduru və sair bitkilərdən sonra əkilməsi daha məqsədəuyğundur. Bu bitkinin iki-üç ildən artıq eyni sahədə əkilməsi məsləhət deyildir. Çünki birtərəfli qidalanma getdiyindən torpağın münbitliyinin aşağı düşməsi ilə yanaşı, bitkinin xəstəlik və zərərvericilərlə yoluxmasına şərait yaranır.

Taxıl əkiləcək sahə sələf bitkilərdən boşalan kimi hər hektara 400-450 kiloqram fosfor və 100-150 kiloqram kalium gübrələri verilərək 28-30 santimetr dərinlikdə şumlanmalıdır. Bitkilərin güclü böyüməsini, inkişafını və qışdan salamat çıxmasını təmin etmək və eləcə də əlverişsiz şəraitə müqavimətini artırmaq üçün torpağa fosfor gübrəsinin verilməsinin böyük əhəmiyyəti vardır. Haqlı olaraq el arasında ona "Bar gübrəsi" də deyirlər.

Taxılın vegetasiyasının ilk dövrlərində bitkilərin fosfora tələbi yüksək olur. Həmin vaxt verilmiş fosfor gübrəsi bitkilərin artımına səbəb olur və xüsusilə kök sisteminin böyüməsini sürətləndirir.

Əldə olunmuş təcrübə onu göstərir ki, fosfor və kalium gübrələrinin illik normasının şumaltına verilməsi məsləhətdir. Bundan başqa, azmünbitli torpaqlarda bitkiləri azotla normal təmin etmək məqsədilə səpin zamanı azot gübrəsi normasının 20-30 faizi toxumla birlikdə sahəyə verilməlidir.

Taxıl əkiləcək sahənin şumunun keyfiyyətli və səpindən 1-2 ay tez aparılması məhsuldarlığa 2-3 sentnerə qədər təsir göstərə bilər.

Səpin optimal müddətdə aparılmalıdır. Təcrübə göstərir ki, payızda bitkilərin güclü və mərhələli inkişafı toxumların vaxtında səpilməsindən asılıdır. Bu da bitkilərin əlverişsiz qışlama şəraitinə davamlılığını təmin edir.

Bitkilərin xəstəlik və zərərvericilərlə sirayətlənməsi və dənin yetişməsi də səpin müddətindən asılıdır. Bütün bunlar bitkilərin sıxlığına, dənin keyfiyyətinə və məhsuldarlığına təsir göstərir. Ona görə də səpin optimal vaxtda başa çatdırılmalıdır. Optimal müddətdə səpilmiş sahələrdə bitkilər şaxtalar düşənə kimi kifayət qədər güclü yan köklər əmələ gətirir, möhkəmlənir və kollanırlar. Belə olan halda bitkilər qışın əlverişsiz şəraitinə davam gətirə bilir.

Muxtar respublika ərazisində səpin aran zonalar üçün oktyabrın 1-dən 30-dək, dağətəyi zonalar üçün sentyabrın 20-dən oktyabrın 25-dək aparılmalıdır. Havalar səpin üçün əlverişli keçdikdə noyabr ayında da səpin aparmaq mümkündür.

Taxıl bitkilərindən yüksək və keyfiyyətli məhsul əldə etmək üçün bu bitkilərin toxumlarının sağlam və yüksək kondisiyalı olması əsas şərtlərdən biridir.

Toxumla yayılan, taxıl üçün qorxulu sayılan bir çox xəstəliklərin qarşısını almaq və ona qarşı mübarizə aparmaq məqsədilə səpiləcək toxum materialının dərmanlanması da mühüm əhəmiyyət daşıyır.

Taxılın səpin norması sələflərdən, torpağın münbitliyindən, səpin müddətindən və üsulundan, əkiləcək sortun bioloji xüsusiyyətlərindən, toxumun təmizliyindən, mütləq çəkisindən və digər amillərdən asılı olaraq dəyişə bilər. Səpiləcək toxumların cücərmə qabiliyyəti 95 faizə, təmizliyi 99 faizə, təsərrüfat yararlılığı 94 faizə və mütləq çəkisi 45 qrama bərabər olmaqla, 1-ci sinif toxumluq buğda ilə səpin aparılması məsləhətdir. Gecikmiş səpinlərdə səpin norması 10-15 faiz artırılmalıdır.

Səpin aşağı norma ilə aparılarsa, bitkilər seyrək olur, alaqların inkişafına əlverişli şərait yaranır. Ona görə də belə əkinlər az məhsul verir. Səpin norması çox olduqda isə sahədə bitkilər sıx olur, bir-birini kölgələndirir, torpaqda su və qida maddələri çatışmır. Nəticədə, bitkilər seyrək və az dənli kiçik sünbüllər əmələ gətirir.

Bir hektara orta hesabla 200-250 kiloqram buğda, 180-200 kiloqram arpa toxumu səpilməsi məsləhətdir.

Səpin zamanı akademik Cəlal Əliyevin yetişdirdiyi "Bərəkətli-95", "Qiymətli-2/17", "Əzəmətli-95", "Qobustan", "Ruzi-84" və muxtar respublikanın torpaq-iqlim şəraitinə uyğun gələn "Qılçıqsız-1", "Dağ-daş", "Qaraqılçıq", "Quality", "Ceyhan-99", "Güvən-2" buğda sortlarından, arpa sortlarından isə "Naxçıvandəni", "Qarabağ-7" sortlarından istifadə edilməsi məqsədəuyğundur.

Səpin zamanı toxumlar torpağa elə dərinliklə basdırılmalıdır ki, onlar rütubət, istilik və hava ilə normal təmin oluna bilsinlər.

Normal rütubətli və yaxşı becərilmiş torpaqlarda toxum 5-6 santimetr dərinlikdə basdırılmalıdır. Əgər toxum dayaz basdırılarsa, kök sistemi torpaqla zəif əlaqədə olur və taxıllarda kök yatması baş verir. Bu ən böyük yatma hesab edilməklə gələcəkdə məhsul itkisinə səbəb olur. Ona görə də taxıl səpini zamanı "Naxçıvan Aqrolizinq" ASC-də olan müasir texnologiya ilə hazırlanmış Türkiyə istehsalı olan BM-24 və BM-28 markalı aqreqatlardan istifadə etmək olar. Səpin qurtaran kimi həmin sahəyə şırım və ya mora açılaraq suvarma aparılmalıdır. Taxıl bitkilərinin suvarılmasında əsas üsullardan biri şırımlarla suvarmadır. Bu üsul tətbiq edildikdə torpaq yaxşı rütubətlənir, qaysaq əmələ gəlmir, torpağın strukturu yaxşı saxlanılır, su itkisi olmur, əl əməyindən az istifadə edilir, mora üsuluna nisbətən torpaq su ilə təmin olunduğundan quraqlığa qarşı davamlı olur. Taxıla torpaq suyundan başqa, 3-4 dəfə vegetasiya suyu verilməsi məsləhətdir.

*Taxılçılıqda sonuncu və mühüm tədbirlərdən biri də taxılın vaxtında, itkisiz və qısa bir zamanda biçilib sahədən götürülməsidir. Sadalanan tədbirlərin qüsursuz yerinə yetirilməsi taxıl əkilən sahələrdən bol məhsul götürülməsinə şərait yaradar.*

**Yaşar QULİYEV**
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı***

*İsti yay günlərində insanların istirahətə daha çox ehtiyacı olur. Buna görə də ilin bu fəslində ucqar kəndlərə, təbiətin qoynuna üz tutanların sayı çoxalır. Kimisi dağlar qoynundakı yaylaqlarda, kimisi yamyaşıl təbiət ərazilərində, kimisi də ölkə xaricinə üz tutmaqla dincəlməyi üstün tutur. Bütün bunlarla yanaşı, yay turizminin ən gözəl ünvanlarından biri də çimərliklərdir.*

# İsti yayın sərin imkanı və ya Naxçıvan şəhər çimərliyindən təəssüratlar

Çimərliklərin digər istirahət məkanlarından fərqi həm də ondadır ki, bu cür su mənbələri qızmar havalarda insanların daha çox üz tutduğu məkanlardan sayılır, eyni zamanda orqanizm Günəş şüalarından yetərincə yararlana bilir. Etiraf etmək lazımdır ki, muxtar respublikamızın zəngin turizm potensialı bu cür imkanlardan istifadəni zəruri və əlçatan edir. Doğrudur, əvvəllər muxtar respublika ərazisindəki müxtəlif su mənbələrindən, çaylardan yay fəslində kortəbii şəkildə çimərlik məqsədilə istifadə olunsa da, bu, kütləvi xarakter daşımayıb və təbii ki, belə məkanlar istirahət meyarlarına uyğun olmayıb. Çünki bu cür mənbələrdən istifadə etmək müxtəlif təhlükəsizlik qaydalarının pozulmasından tutmuş antisanitariya şəraitinə qədər bir çox xoşagəlməz "sürprizlərlə" dolu olub. Çimərlik istirahətinin "ləzzətini" həyatları bahasına qazananlar da az olmayıb. Eyni zamanda hər kəs bundan yararlana da bilməyib. Ancaq ötən il Uzunoba Su Anbarında yaradılmış Naxçıvan şəhər çimərliyi yerli sakinlərin, eləcə də bura yolu düşən qonaqların sevimli məkanına çevrilib. Elə biz də yayın bu qızmar, isti günlərindən birində yolumuzu bu məkandan saldıq.

...Redaksiyadan çıxanda iş gününün sonuna az qalsa da, hava çox isti və bürkülü idi. Çimərliyə gedənlərin, adətən, günün bu vaxtını seçdiyini bildiyimizdən özümüz də bu istirahətdən yararlanmaq qərarına gəlmişdik. Çünki yorğun iş günündən sonra gün ərzində Günəş şüalarından kifayət qədər isinmiş suda dincəlməyin, necə deyərlər, öz yeri var. Fikrimizdə yanılmamışdıq. Çimərliyə çatdıqdan sonra qısa vaxt ərzində bura gələnlərin sayının getdikcə artdığını bir daha müşahidə etdik.

Naxçıvan şəhər çimərliyi ötən il istifadəyə verilib. Çimərliyin ümumi sahəsi 14 min 850 kvadratmetrdir. Burada həm böyüklər, həm də uşaqlar üçün çimərlik sahələri nəzərdə tutulub. Uşaqlar üçün çimərliyin uzunluğu 30 metr, eni 15 metr, dərinliyi isə 70 santimetrdən



120 santimetrədəkdir. Böyüklər üçün zolağın uzunluğu isə 255 metr, eni 20 metrdir. Dərinlik 2-4 metr arasında dəyişir. Suyun üzərində çimərlik sərhədinin qurtardığını bildirən qadağanedici nişanlar qoyulub. Bundan əlavə, çimərliyə gələnlər üçün burada hərtərəfli şərait yaradılıb. Sahilboyu günlüklər, çarpayılar qoyulub, paltardəyişmə yerləri, duş kabinələri fəaliyyət göstərir. Çimərlik istirahət zonasında su və digər idman növləri üzrə məşğul olmaq istəyənlər də yaddan çıxarılmayıb. Su velosipedləri və motosikletləri, futbol və voleybol meydançaları idmansevərlərin asudə vaxtının səmərəli təşkili üçün nəzərdə tutulub. Burada ictimai iaşə xidməti də yaxşı təşkil olunub. Çimərliyə xidmət edən inzibati binada hərtərəfli şərait yaradılıb. Xidmətin səlahiyyətli nümayəndəsi Emin Səfərov bildirdi ki, binada iş otağı, kafe, mətbəx, anbar və mağaza yerləşir. Burada müştərilərə, əsasən, yerli istehsal olan müxtəlif sərinləşdirici içkilər, dondurmalar, çay və kofe təqdim olunur. Eyni zamanda müxtəlif çeşidlərdə hazırlanmış balıq yeməkləri və kabablar da təklif edilir. Müsahibimiz onu da qeyd etdi ki, yaradılmış şərait, göstərilən xidmət insanların bura daha çox axışmasına səbəb olur. Ötən illə müqayisədə müştərilərimizin sayı daha da artıb. Şənbə və bazar günləri çimərliyə daha çox insan gəlir.

Burada olduğumuz müddətdə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin xidmət başında olan əməkdaşları ilə də söhbət etmək imkanımız olur. Nazirliyin Dövlət Sularda Xilasetmə Xidmətinin xilasedici qrupunun rəhbəri, baş leytenant Rüfət Məmmədov bildirdi ki, qrupda 6 nəfər xidmət aparır. Eyni zamanda sahildəki nəzarət qülləsindən daim ətrafa nəzarət olunur, hər hansı qayda pozuntusu qeydə alınarsa, səsgücləndirici qurğu vasitəsilə xəbərdarlıq edilir. Qrup əməkdaşlarının hamısı lazımi geyim və rabitə cihazları ilə təmin olunub. Çimərlik yaradılmamışdan əvvəl burada tez-tez suda boğulanlar olurdu. Təcrübəsizlik, suda dərinliyin müxtəlif yerlərdə fərqli olması, eyni zamanda nəzarətin olmaması xoşagəlməz halların baş verməsinə səbəb olurdu. Ancaq indi vəziyyət tamamilə əksinədir. Əsas vəzifələrimizdən biri də çimərlik üçün qadağan olunmuş digər sahillərə nəzarət etməkdir ki, həmin yerlərdən istifadə olunmasın. Xilasedici qrupun rəhbəri istirahətə gələnlərin təhlükəsizliyinin təmin olunmasını özlərinin əsl peşə borcu olduğunu söyləməklə yanaşı, vətəndaşlarla daim maarifləndirici söhbətlər apardığını da vurğuladı.

Fürsətdən istifadə edib istirahətə gələnlərlə də söhbət edirik. Arzuman Qocayev Babək rayonundandır. Lənkəran şəhərində ali təhsil alır. Tətil günlərini Naxçıvanda keçirir: "Artıq ikinci dəfədir ki, buradakı çimərliyə gəlirəm. Keçən il də dostlarımızla bura gəlmişdik. Buradakı şəraitdən çox razıyıq. İstirahət üçün hər şey nəzərə alınıb. Su idmanı mənim ən çox sevdiyim idman növüdür. Buna görə də bura gələrkən bəzən 3-4 saatımız bu idman növləri ilə məşğul olmağa sərf olunur. Su da çox təmizdir. Ən əsası isə təhlükəsizlik qaydalarına cox ciddi nəzarət olunur".



Elnur Ağayev isə övladları ilə birlikdə bura gəldiyini deyir: "Böyük oğlum yeddinci, balacası isə dördüncü sinifdə oxuyur. Bir müddətdir ki, hər ikisini çimərliyə aparacağıma söz vermişdim. Ancaq vaxtım olmadığından verdiyim sözü bu gün gerçəkləşdirə bilmişəm. Hər ikisi üzgüçülüklə məşğul olduğuna görə üzməyi çox sevir. Buna görə də çimərlik onların sevdikləri istirahət məkanları sırasında ən başda gəlir. Əslində, mən özüm də onlarla birgə istirahət edirəm. Minnətdaram ki, bizim üçün belə bir şərait yaradılıb".

Əli adlı həmsöhbətimiz isə İran İslam Respublikasından gəlib. Naxçıvana üçüncü dəfədir, gəldiyini söyləyir: "Bu, Naxçıvana üçüncü gəlişimdir. Sonuncu dəfə iki il bundan əvvəl gəlmişdim. Bu dəfə isə ailəmizlə gəlmişik. İndi baxıram ki, Naxçıvan iki ildə çox dəyişib. Yeni binalar tikilib, rahat yollar salınıb. Naxçıvanda çimərliyin olmasını bilmirdim. Bunu yerli taksi sürücülərinin birindən öyrəndim. Elə bizi də o gətirdi bura. Xoşumuza gəldi. Sürücü ilə də danışmışıq ki, bizi axşamayaxın gəlib götürsün. Sağ olsunlar, yaxşı şərait yaradıblar".

*Çimərlikdə olduğumuz müddətdə bir çox insanlarla görüşüb söhbət etdik. Hamısı da yaradılmış şəraitdən razılıqla danışdılar. Söhbətləşdiyimiz insanların minnətdarlıqla dilə gətirdikləri üç əsas amil isə buradakı səliqə-sahman, təhlükəsiz istirahət və ümumi xidmətin yaxşı təşkil olunması haqqında oldu. İstənilən bölgədə turizm məhz bu amillər üzərində inkişaf edir. Naxçıvan şəhər çimərliyi yaradılmış şəraiti və təqdim etdiyi xidmətləri ilə bu isti yay günlərində bura yolu düşənlərin qəlbinə, sözün əsl mənasında, sərinlik səpməyi bacarıb.*

✍ **Səbuhi HƏSƏNOV**

# Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində könüllü qanvermə aksiyası keçirilib



*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi irsi qan xəstəliklərindən əziyyət çəkən və qan köçürülməsinə ehtiyacı olan digər xəstələrin müalicəsində istifadə olunmaq üçün qanvermə aksiyalarının təşkilini davam etdirir.*

Belə nəcib və humanitar aksiyalardan biri avqustun 13-də Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin şəxsi heyətinin iştirakı ilə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində həyata keçirilib. Donorların müayinəsini və qan götürülməsini həyata keçirən qan bankının həkimi Məmmədəli Həsənov ölkəmizdə qan köçürülməsinə ehtiyacı olan xəstələrin müalicəsinə göstərilən dövlət qayğısından, bu sahədə həyata keçirilən layihələrdən danışıb. Qeyd olunub ki, müasir təbabətdə həkimlərin əlində çoxlu müalicə vasitələri olmasına baxmayaraq, ən ağır vəziyyətlərdə xəstələrin həyatlarının xilas edilməsi üçün əvəzsiz rol oynayan canlı dərman donor qanıdır. Hemofiliya və talassemiya xəstələrinin müalicəsində qan komponentlərinin və preparatlarının istənilən vaxtda əlçatan olması çox vacibdir və donor qanına tələbatı artırır. Müxtəlif travma və yaralanmalar, mürəkkəb cərrahi əməliyyatlar və doğuşlar zamanı qan itirmələrdə, xroniki qanazlığında, qanın irsi və qazanılmış xəstəliklərində, onkoloji xəstəliklərdə, daxili orqanların – ürək, böyrək, mədə-bağırsaq, qaraciyər və digər müxtəlif xəstəliklərində qandan və ya qandan hazırlanmış preparatlardan geniş istifadə olunur. Qandan belə geniş istifadə edilməsi ona olan tələbatı da artırır. Bununla əlaqədar olan məsələlərin həllində qan donorluğunun, xüsusən təmənnasız donorluğun böyük əhəmiyyəti vardır. Xalqımızın donorluğa göstərdiyi rəğbət, insanpərvərlik, xeyirxahlıq və humanizm bu işin təşkilinə böyük kömək edir. Muxtar respublikamızda da bu istiqamətdə tədbirlər ardıcıl olaraq həyata keçirilir.

Sonra nazirliyin şəxsi heyəti "Sən də bir həyat ver" devizi altında qanvermə aksiyasına qoşulub. Əvvəlcə donorlardan arterial təzyiq, hepatit, QİÇS və digər yoluxucu xəstəliklərin müəyyən edilməsi üçün qan analizləri götürülərək testdən keçirilib. Bir neçə saat davam edən aksiyada 26 nəfər könüllü olaraq qan verib. Donorlardan götürülən 12 litr qanın qrupları müəyyənləşdirilərək ikili və üçlü torbalarda mərkəzin qan bankına təhvil verilib. Hazırda qan bankında xəstələrə köçürülmək üçün kifayət qədər ehtiyat yaradılıb. Tələbatdan artıq donor qanından plazma hazırlanaraq qan bankında saxlanılacaqdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***Dünən M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında muzey işi üzrə seminar keçirilib. Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən seminarı nazirliyin şöbə müdiri Həsən Kərimov açıb.***

# Muzey işi üzrə seminar

Qeyd olunub ki, nazirlik tərəfindən keçirilən yoxlamalarda muzey işi sahəsində də çatışmazlıqlara rast gəlinib. Keçirilən seminarın məqsədi bu nöqsan və çatışmazlıqların aradan qaldırılmasına əməli və metodik köməklik göstərməkdir.



Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin sektor müdiri İman Alırzayev "Kargüzarlıq işinin ümumi qaydaları" mövzusunda çıxış edərək bildirib ki, sənədlərin qəbulu, göndərilməsi, icraçıya çatdırılması, icra edilməsi, icraya nəzarət, daxil olan sənədlərin qeydə alınması, sənədlərin, məktubların hazırlanması və tərtibi, əmrlərin hazırlanması zamanı kargüzarlıq işinin qaydalarına riayət edilməlidir.

Nazirliyin əməkdaşı Cəfər Əsədov "Kadr sənədlərinin hazırlanması" mövzusunda çıxışında kadr sənədlərinin hazırlanması, şəxsi işlərin aparılması, şəxsi işlərə aid sənədlərin, kadr anketlərinin düzgün doldurulması, əmək müqavilələrinin bağlanması şərtləri, məzuniyyətlərin verilməsinin rəsmiləşdirilməsi və uçotunun aparılması qaydaları haqqında danışıb.

Nazirliyin şöbə müdiri Həsən Kərimov "Muzey işinin metodikası" mövzusunda çıxışında muzeylərə aid təlimatla bağlı tədbir iştirakçılarına məlumat verib. Qeyd olunub ki, muzeylərimizdə müəyyən olunan əşyaların qəbulu, uçot-mühafizə işinin təşkili, qəbul olunan əşyaların aktlarının tərtibi zamanı təlimata əsaslanmaq vacibdir. Bu zaman uçot nişanlarının işlənməsi, inventar nömrəsinin səliqəli və düzgün yazılmasına diqqət yetirmək lazımdır. Muzey eksponatlarının komplektləşdirilməsində nəzərdə tutulmuş qaydalara riayət etmək əsas şərtdir. Son illərdə muzey işi sahəsində olan yeniliklər də muzey işçilərinin diqqətinə çatdırılıb, onların peşəkarlıq səviyyəsinin yüksəldilməsi məsələlərinə toxunulub.

Seminarda sənədlərin işlənməsi qaydaları müvafiq slaydlar vasitəsilə əyani nümayiş etdirilib və iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Əli RZAYEV**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 620